# Görkəmli alim və səhiyyə təşkilatçısı

**Fəxrəddin Cavadov 1951-ci ildə aprelin 20-də Bakının tanınmış ziyalılarından biri olan Gülmirzə Cavadovun ailəsində anadan olub. Bakı şəhəri 7 saylı orta məktəbi bitirdikdən sonra, 1968-1974-cü illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə profilaktika fakültəsində ali təhsil almışdır. 1974-cü ildə 31 saylı Şəhər Birləşmiş Xəstəxanasında həkimlik təcrübəsinə başlamışdır.**

1975-1977-ci illərdə Bakı şəhər Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında səyyar həkim işləmiş, 1977-1979-cu illərdə 5 saylı şəhər poliklinikasında həkim-cərrah vəzifəsində çalışmışdır. 1978-1986-cı illərdə N.Nərimanov adına Tibb İnstitutunun urologiya kafedrasında müxtəlif vəzifələrdə işləmiş, eyni zamanda, İnstitutun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsində çalışmışdır. 1986-1990-cı illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Elm və Təhsil müəssisələri, İqtisadi-Sosial şöbələrində məsul vəzifələrdə çalışmışdır. 1985-ci ildə Moskva vilayətinin Vladimirski adına Elmi-Tədqiqat Kliniki İnstitutunda dissertasiya müdafiə edərək, tibb elmləri namizədi, 2008-ci ildə isə tibb elmləri doktoru elmi dərəcələrini almışdır. Fəxrəddin Cavadov Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi xarici üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının səhiyyəsinin təşkili sahəsində professoru idi. O, bir neçə elmi kitabların, çoxsaylı məqalənin müəllifi və həmmüəllifidir. Bütün bunlarla yanaşı, Fəxrəddin Cavadov həkimlik missiyasını uğurla həyata keçirən bir ziyalı olub. 1990-1996-cı illərdə o, Azərbaycan səhiyyə nazirinin birinci müavini vəzifəsində çalışmışdır. 1993-cü ildə bir neçə ay ərzində Azərbaycan Respublikası səhiyyə naziri əvəzi işləmişdir. Qarabağ müharibəsi zamanı Respublika Hərbi Tibbi qərargahının rəisi vəzifəsini yerinə yetirmiş, cəbhə bölgələrinə səfərləri zamanı səyyar hospital, aptek və tibb məntəqələrinin yerləşdirilməsi, fəaliyyət göstərməsini koordinasiya edib. Xüsusilə həmin illərdə qardaş Türkiyədən cəbhə üçün tibbi yardımın peşəkar mütəxəssislərindən ibarət tibbi heyətin Azərbaycana gətirilməsi üçün böyük səylər göstərmişdir. 1998-2000-ci illərdə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun tibb fakültəsi və ali təhsilli kadrların hazırlanması üzrə prorektor, daha sonra isə birinci prorektor vəzifələrində işləmişdir. 2000-ci ildən etibarən, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Mərkəzi Neftçilər Xəstəxanasının baş həkimi təyin olunmuş və ömrünün sonuna kimi bu vəzifədə çalışmışdır. Qısa zamanda Mərkəzi Neftçilər Xəstəxanasında əsaslı yenidənqurma işləri aparmış, xəstəxana ən yüksək standartlara uyğun olaraq maddi-texniki baza ilə təchiz edilmişdir. Fəxrəddin Cavadov Mərkəzi Neftçilər Xəstəxanasının yüksək ixtisaslı mütəxəssis bazasının yaradılmasında xüsusi rol oynamış, həkim və tələbələrin Avropanın aparıcı təhsil və tibb ocaqlarına göndərilməsinə nail olmuşdur. O, xaricdə təhsil alan perspektivli gənc milli kadrların Azərbaycana qayıtması üçün xəstəxanada hər cür təminat yaratmışdır. Bununla yanaşı o, bir sıra xarici ölkələrdən peşəkar həkimlərin Mərkəzi Neftçilər Xəstəxanasına gətirilməsinə nail olmuş və peşəkar briqadaları yaratmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icra olunması çərçivəsində regional müalicə diaqnostika mərkəzlərinin tikilməsi, müasir avadanlıqlarla təchiz olunması və həmin mərkəzlərdə mürəkkəb cərrahi əməliyyatların həyata keçirilməsi işində də Fəxrəddin Cavadov gərgin əmək sərf etmişdir. İlk ürək-damar cərrahiyyə əməliyyatlarının keçirilməsi, böyrək, qara ciyər transplantasiyasının uğurla həyata keçirilməsi, onun qeyri-adi səhiyyə təşkilatçısı olduğunu sübut edir. O, ilk dəfə olaraq Azərbaycanda Kariovaskulyar Cərrahlar Assosiasiyasını yaratmışdır. Fəxrəddin Cavadovun xidmətləri Azərbaycan dövləti tərəfindən həmişə yüksək qiymətləndirilib və dövlət daima ona yüksək etimad göstərib. 2006-cı ildə o, ölkə Prezidentinin sərəncamı ilə Azərbaycan səhiyyəsinin



inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının əməkdar həkimi fəxri adına layiq görülmüşdü. O, həm də Y.Məmmədəliyev adına Qızıl Medalla təltif olunmuşdur. 2009-cu il yanvarın 9-da Fəxrəddin Cavadov yenidən qurub yaratdığı Mərkəzi Neftçilər Xəstəxanasında iş başında haqq dünyasına qovuşmuşdur.

Fəxrəddin Cavadovun yaşamaq, yaşatmaq missiyası bu gün onun yetirmələri tərəfindən uğurla həyata keçirilir. Bu gün Mərkəzi Neftçilər Xəstəxanasında unikal cərrahi əməliyyatlar aparılır. Bütün bunlar Fəxrəddin Cavadovun hazırladığı geniş səhiyyə proqramlarıdır və bu gün həmin layihələr millətimizin sağlamlığı naminə həyata keçirilir. Demək, Fəxrəddin Cavadov yaşayır və yaşayacaq da!

**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin İqtisadi-Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri.**